

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 noyabr 2025-ci il, çərşənbə axşamı
№ 214 (7041)
Qiymәti 60 qəpik


## Bir ay, bir millət, bir Zəfər: Noyabrın mistik sirri...



## İlahi ədalətin bərpa edildiyi zaman kəsimi

Bax səh. 2

## Gözəl Kəlbəcər, Günün mübarək!



Bax səh. 4

## İlham Əliyev: Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır

Bax səh. 3

## Əczaçılıq sənayesinin inkişafına töhfə

Prezident İlham Əliyevin Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışını etməsi ölkəmizdə innovasiyönümlü sənaye istehsalı zəncirinin genişləndiyini təsdiqləyir.

Qeyd edək ki, Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunmuş "Scandens Pharmaceutical Industries Ltd" MMC-də antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. Həmin məhsullar həm daxili bazarın tələbatına yönəldiləcək, həm də gələcəkdə ixracın ünvanlarından birinə çevriləcək. Özəl investisiya layihəsi olan bu müəssisənin 74 milyon manat sərmayənin yaradılmasına cəlb edilməsi ilə dərman sənayesi sektorunda iritutumlu istehsal...

Bax səh. 3



Bax səh. 5

## YAP nümayəndə heyəti Braziliya Federativ Respublikasında səfərdə olub

## Birinci Forum...

### Şuşada Azərbaycan - Türkiyə Beyin Mərkəzlərinin nümayəndələri bir araya gəlib

Noyabrın 24-də Şuşa şəhərində Azərbaycan - Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu keçirilib. Forumda iki ölkənin aparıcı analitik qurumlarının rəhbərləri, ekspertlər və akademik çevrələrin nümayəndələri iştirak ediblər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən forum açılış nitqləri ilə başlayıb. BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycanla Türkiyənin hərbi, siyasi əməkdaşlığı artıq bir nümunədir. Onun sözlərinə görə, hazırda regionun siyasi mənzərəsi köklü şəkildə dəyişib: "Bir sıra istiqamətlər var ki, burada biz Türkiyə ilə sıx şəkildə əməkdaşlıq etməliyik. Hazırkı mərhələdə maksimum çalışmalıyıq ki, siyasətin əsas elementləri bir-birinə bənzər olsun. Cənubi Qafqazdakı vəziyyət, Ermənistanla normallaşma prosesi davam edir. Bu yaxınlarda Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri...

Bax səh. 6

## 2 milyon dollar və 28 kq qızıla dəyişdirilən 775 nömrəli sərəncam

Bax səh. 6

## Mənəvi dəyərlərin qorunması naminə...

Bax səh. 6



## Dünyaya yeni iqtisadi formul təqdim olunur

Bax səh. 7

## Materiyanın çürük zənciri

Bax səh. 7

# Bir ay, bir millət, bir Zəfər: Noyabrın mistik sirri...

## İlahi ədalətin bərpa edildiyi zaman kəsimi

Zaman ilə yaşam arasında görünməyən, lakin hiss edilən bir körpü var. Bu körpü bəzən insanın daxili duyumu ilə tarixin ritmini eyni nöqtəyə gətirir. Hadisələrin bir-birinə bu qədər uyğun gəlməsi, müəyyən bir ayın və ya bir günün uzun illər boyu həlledici rol oynaması təsadüfdən kənar görünür. Elə bil zaman öz içində gizlənmiş kodları məhz həmin tarixlərdə açır. Azərbaycan üçün belə mistik məqamların ən güclüsü noyabr ayı ilə bağlıdır. Məhz bu ayda daha çox millətin taleyini müəyyən edən qərarlar qəbul edilib, qələbələr qazanılıb, dövlətçilik özünə yeni bir nəfəs, yeni bir məna tapıb...

Tarixə baxdıqda noyabr sanki Azərbaycan xalqının qismətinə düşmüş bir "ilahi imza" təsiri bağışlayır. Zəfər günümüz bu ayda gerçəkləşib, Zəfər yolumuz bu ayda görünür olub, yenilənmə, dirçəliş və dövlətçilik ənənələrinin mühüm məqamları məhz bu ayda yaşanıb. Konstitusiya Günümüz, Dövlət Bayrağı Günümüz və işğaldakı torpaqların azadlığı - hamısı, elə bil, eyni göy qurşağının müxtəlif rəngləri kimi noyabrın çətiri altında toplanıb.

*Bu da təsadüfdürmü? Yoxsa tarixin öz diksiyası, zamanın öz sözüdür?*

Noyabr ayı yalnız tarixlə mistikanın qovşaq nöqtəsi deyil - bu ay ideyanın gerçəyə çevrilməsi, amalın nəticə verməsi, xəyanətlə ədalətin üz-üzə gəldiyi meydandır. Hər dəfə bu ay gələndə sanki tarix pərdələri aralanır və xalqın yaddaşına yazılmış böyük sınaqlar, böyük dönüş nöqtələri bir daha canlanır. Noyabr Azərbaycan üçün sadəcə təqvim ayı deyil - ədalətin qalib gəldiyi məkan, ilahi ədalətin işıq saçdığı zaman kəsimidir.





### Heydər Əliyev fenomeni: noyabrın ilk işığı...

Tarix böyük şəxsiyyətlər yaradır. Bəzən millətlərin taleyi bir şəxsiyyətin xarizmasında, zəkanı, iradəsini və gücünü özündə birləşdirən bir liderin çiyinlərində formalaşır. Müasir Azərbaycanın məsuliyyəti və qətiyyəti, xalqımızın gələcəyi, dövlətçiliyimizin sabahı Heydər Əliyev şəxsiyyətində cəmlənmişdi. Heydər Əliyev sadəcə müasir dövlətçiliyimizin qurucusu deyil - Heydər Əliyev Azərbaycan tarixinin özüdür. Onunla başlayan mərhələ ölkəmizin sosial, iqtisadi, siyasi və mənəvi inkişafında dönüş yaratdı.

1970-1980-ci illərin Sovet reallığında Azərbaycanın geridə qalmış respublika statusundan xilas edilməsi, İttifaq miqyasında tanınması, sənaye, mədəniyyət və təhsil sahələrində sıçrayışın baş verməsi birbaşa Heydər Əliyevin adı ilə bağlı idi. O, SSRİ kimi nəhəng bir sistemin daxilində Azərbaycanı irəli çəkən qüvvəyə çevrilmişdi. Azərbaycanın böyük oğlu hər dəfə tribuna arxasına keçəndə təkcə respublikanın deyil, bütöv bir xalqın qürurunu təmsil edirdi.

1982-ci ilin 23 noyabrı isə Azərbaycan tarixinin sabahının formalaşmasının mistik səhifələrindən biridir. Həmin gün Heydər Əliyev SSRİ Siyasi Bürosunun üzvü seçildi və Moskvaya yollandı. Bu gediş, əslində, Azərbaycanın gələcək inkişafının strateji əsasının qoyulması idi. O dövrdə respublikanın iqtisadi, sosial və intellektual inkişaf trayektoriyası məhz bu qərarın davamı kimi formalaşdı. Bu gediş Azərbaycanın gələcəyini formalaşdıracaq kadrların yetişdirilməsini, milli özünüdərkin güclənməsini, modern dövlətçilik təfəkkürünün ortaya çıxmasını təmin etdi.

1982-ci ilin noyabrı, əslində, iki paralel yolun başlanğıcı idi:

- SSRİ-də Azərbaycanı zirvələrə yüksəldən yol;
- Gələcək müstəqil dövlətimizin təməllərini hazırlayan yol.

Nəhayət, bu yol 40 il sonra - 2020-ci ilin noyabrında Azərbaycanın Zəfər yolunda öz təntənəsini tapdı. 1982-ci ildə Moskvaya uzanan yol, 2020-ci ildə Şuşaya aparan Zəfər yoluna çevrildi. Tarix öz möcüzəsini göstərdi. Noyabr həm inkişafın başlanğıcı, həm də qələbənin zirvəsi oldu.




### 1992-ci ilin noyabrı: Yeni Azərbaycan Partiyasının tarixi missiyası

Böyük liderlərin həyatında həm yüksəliş dövrləri olur, həm də uğradıqları haqsızlıqlar dövrü olur. Heydər Əliyevin Sovet rəhbərliyində sürətlə yüksəlişi nə qədər heyranlıq doğururdusa, ona qarşı haqsız kampaniyaların baş qaldırması da bir o qədər təəssüf doğururdu. SSRİ-nin son dönəmlərində - xüsusilə Qorbaçovun hakimiyyəti illərində - Heydər Əliyevin Sovet rəhbərliyindən uzaqlaşdırılması təkcə siyasi bir intriqa deyildi; bu addım bilavasitə Azərbaycana qarşı yönəlmiş strateji zərbənin tərkib hissəsi idi.

1987-ci ilin oktyabrında Heydər Əliyev tutduğu vəzifələrdən istefa verdi. Bu, Azərbaycanın taleyində də bir mənfi dönüş nöqtəsi oldu. Çünki məhz bundan sonra Moskva və Ermənistanın əlbir fəaliyyəti ilə respublikamıza qarşı separatizm planı işə düşdü, Qarabağa qarşı açıq iddialar irəli sürüldü. Azərbaycan başsızlıq görüntüsü yarandığı üçün hədəfə çevrildi. Ölkə bir-birinin ardınca itkilər yaşadı, xaos, anarxiya, siyasi parçalanma dərinləşdi.

Belə ağır bir zamanda həm milləti, həm də dövləti xilas etmək üçün qəti addıma, milli mövqeyə, cəmiyyəti birləşdirən xilasedici gücə ehtiyac vardı. Azad dövlətimizin yaşaması üçün xalqın lideri önə çıxmalı idi. Qəti addımlar atılmalı idi - bu addım 1992-ci ilin noyabrında atıldı. Nə təsadüfdürsə: yenidən noyabr... yenidən taleyüklü tarix...

Heydər Əliyevin liderliyi ilə Yeni Azərbaycan Partiyası yarandı. Bu, sadəcə bir siyasi təşkilat deyildi - bu, xalqın nicat platforması idi. YAP Heydər Əliyevin liderliyi ilə Azərbaycanı siyasi böhrandan, parçalanmadan, hərcmərclikdən xilas edən, dövlətçiliyi yenidən dirçəldən qüvvəyə çevrildi.

Bu gün YAP-ın 750 minlik ailəsi Cənubi Qafqazın ən böyük siyasi gücüdür. İlham Əliyevin rəhbərliyi ilə partiya Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Noyabrda yaranan YAP noyabrda qazanılan Zəfərin siyasi dayağı oldu.

### Noyabrdan noyabra: xəyanətin başlanğıcı, ədalətin gücü...

Azərbaycanın son 40 illik tarixində Qarabağ mövzusu həm dərd, həm ümid, həm də böyük dönüş nöqtəsi olub. Yaşamımızın episentri Qarabağ olub. Dilimizin əzbəri Qarabağ olub. Ürəyimizin titrəyişi Qarabağ olub. Dövlətimizin hədəfi Qarabağın azadlığı olub.

Yenə də nə təsadüfdürsə, Qarabağa qarşı erməni iddialarının ilk açıq anonsu da digər taleyüklü hadisələr kimi məhz noyabr ayında səsləndi. 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun müşaviri Abel Aqambekyanın Qarabağı Ermənistana birləşdirmək barədə bəyanatı Azərbaycan üçün faciələrin başlanğıcına çevrildi. Bu, xəyanətin ilk siqnalı idi. Bu, işğalın, təcavüzün, ədalətsizliyin, xalqımıza qarşı soyqırımının, beynəlxalq susqunluğun siqnalı idi. Məhz 1987-ci ilin noyabrında səslənən bu iddia 1992-93-cü illərdə yenicə müstəqillik əldə etmiş Azərbaycanın faciələrinin əsasını təşkil edirdi. Amma... Ədalət gec də olsa, təcəlla edir...

### 33 il sonra - yenə noyabr: 2020-ci ilin noyabrı ...

Heydər Əliyev siyasi irsinin layiqli davamçısı İlham Əliyev xalqına, ölkəsinə qarşı edilən bu xəyanətin cavabını verdi. 2020-ci ilin 8 noyabrında Şuşanın azad edilməsi ilə Azərbaycan yalnız torpağını deyil, tarixi ləyaqətini də düşmən tapdağından azad etdi. 44 günlük Vətən müharibəsi 2020-ci ilin noyabrında Qələbə ilə başa çatdı. Bu qələbə təsadüf deyildi - o, 40 illik bir tarixi mübarizənin haqq-ədalətin zirvəsi idi.

Noyabr ayı xəyanətlə ədalətin mübarizə meydanı oldu və sonunda ədalət qalib gəldi. 33 il davam edən zaman savaşı 2020-ci ilin noyabrında tamamlandı.

Bu gün Qarabağda separatizmin kökü kəsilib. Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa edib. Xəyanətin başlandığı ayda, noyabrda ədalət öz parlaq təntənəsini yaşadı. Bu da İlahi ədalətin təcəllası idi...



### Noyabrın qlobal universal mənası: həqiqət gec də olsa, qələbə qazanır

Yaşadığımız əsr, zaman kəsiyi həssaslığı ilə seçilir. Dünya həm bir imtahandan keçir, həm də sabah üçün zəmin yaradır. Bu günün qərarlarının fonunda gələcəyin siyasi, iqtisadi, hərbi doktrinaları hazırlanır. Çətin və məsuliyyətli bir zamandan keçirik.

Noyabr tək Azərbaycan üçün deyil, dünya üçün də xüsusi simvolizmi olan aydır. Bəzən qlobal hadisələr də elə bu ayda düyün nöqtəsindən açılır, illərlə davam edən münaqişələrin sonu noyabra təsadüf edir. Sanki dünya düzəni də bu ayda nəfəs alır, yeni bir dövrə qədəm qoyur.

Bir neçə gün öncə BMT TŞ-da Qəzza bölgəsi üzrə sülh planının təsdiqlənməsi də bu ayda baş verdi. Uzun illər davam edən qarşıdurmanın yumşaldılması istiqamətində ilk real addım noyabrda atıldı. Dünya üçün bu, humanitar ümid işığı idi.

Hazırda yaxınlaşmaqda olan digər mühüm proses - Ukrayna müharibəsinin yekunlaşması istiqamətində aparılan danışıqlar yenə noyabr ayının fonunda baş verir. Bu da təsadüf deyil. Ukrayna çətin imtahan qarşısındadır.

İnanaq ki, noyabr qlobal miqyasda da ədalətin ayıdır. Dünyanın ən böyük böhranlarının yumşaldığı, kompromislərin tapıldığı, sülh gündəminin aktivləşdiyi bir zaman pəncərəsi kimi qəbul edilir. Tarixin universal ritmləri bəzən ölkələrin talelərini bir-birinə bağlayır. Azərbaycanın Zəfəri ilə eyni vaxtda dünyanın başqa bölgələrində sülh cəhdlərinin artması da bu ritmin maraqlı təzahürüdür. 2020-ci ilin noyabrında azad edilmiş Qarabağ dünya üçün mistikanın reallığa çevrildiyi həqiqət kimi qəbul edilir... Ədalət zəfər qazanır. Bəlkə bir az tez, bəlkə bir az gec. Amma, nəticədə, mütləq qələbə qazanır...

### Ədalət mistikası və zəfər sədası...

Nəticədə son mənzərə canlanır qarşımızda - noyabr tarix üçün, ən azından Azərbaycan tarixi üçün sadəcə ay deyil: milli yaddaşın məhək daşı, dövlətçiliyimizin ritmi, azadlığımızın simvoludur. Bu ayda həm faciələr, həm ümidlər, həm də qələbələr yaşanıb. Bu ay həm xəyanətləri xatırladır, həm də ədalətin gec-tez qalib gəldiyini göstərir. Tarix bəzən zamana gizli mesajlar yazır və noyabr Azərbaycan üçün həmin mesajların açarını təşkil edir.

1982-ci ilin noyabrında inkişaf yolumuz açıldı.

1992-ci ilin noyabrında xilasedici siyasi qüvvə - YAP yarandı.

2020-ci ilin noyabrında torpaqlarımız azad olundu. Bu, artıq təsadüf yox, zamanın öz hökmüdür.

Noyabr Azərbaycanın ədalət ayıdır. İlahi ədalətin gecikmədiyini, millətin iradəsinin sınmadığını göstərən simvolik bir zaman mövhumudur. Bu ay Zəfərimizin musiqisi, dövlətçiliyimizin himni, tariximizin ən parlaq səhifələrindən biridir. Noyabr - ədalətin səsləndiyi, tarixin yazıldığı aydır...

*Pərviz SADAYOĞLU*



# İlham Əliyev: Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına

**Hörmətli forum iştirakçıları!**

Sizi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunda ürəkdən salamlayıram.

Türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. İlk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu bu istiqamətdə atılmış mühüm addımdır.

Regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, tərəqqi ideyalarına sadiq olan dost və qardaş xalqlarımızı ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsini şərtləndirir.

Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir.

Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır.

2026-cı ildə 100 illiyi keçiriləcək Birinci Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir.

Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər.

Əminəm ki, forum zamanı quracağınız əməkdaşlıq əlaqələri Türk dünyasında həmrəyliyin, birliyin və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizi bir daha Azərbaycanda salamlayır, forumun işinə uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2025-ci il***

# Əczaçılıq sənayesinin inkişafına töhfə

## Ölkəmizdə istifadəyə verilən dərman zavodları idxaldan asılılığı azaltmaqla, əlçatanlığı təmin edəcək

Prezident İlham Əliyevin Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışını etməsi ölkəmizdə innovasiyönümlü sənaye istehsalı zəncirinin genişləndiyini təsdiqləyir.

Qeyd edək ki, Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunmuş "Scandens Pharmaceutical Industries Ltd" MMC-də antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. Həmin məhsullar həm daxili bazarın tələbatına yönəldiləcək, həm də gələcəkdə ixracın ünvanlarından birinə çevriləcək. Özəl investisiya layihəsi olan bu müəssisənin yaradılmasına 74 milyon manat sərmayənin cəlb edilməsi ilə dərman sənayesi sektorunda iritutumlu istehsal bölmələrindən biri kimi yaxın illərdə öz kapital dəyərini artırması nəzərdə tutulur.

Müəssisənin fəaliyyətə başlaması Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi kimi qiymətləndirilməklə, əczaçılıq sənayesinin inkişafına və yerli istehsalın güclənməsinə töhfə verəcək. Gələcəkdə rəqabətqabiliyyətli məhsulların istehsalı ölkəmizin ixrac imkanlarını da genişləndirəcək.

Müəssisə, eyni zamanda, əczaçılıq sahəsində peşəkar kadrların hazırlanması və əməli bacarıqların inkişafı üçün baza rolunu oynayacaq. "Scandens Pharmaceutical Industries Ltd" MMC, Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti və "Panon Pharma" şirkəti arasında imzalanmış dördtərəfli Memorandum çərçivəsində burada əczaçı və qeyri-əczaçı ixtisasları üzrə qısa və uzunmüddətli təlim və təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulub.

### Hədəf yerli istehsal hesabına tələbatı təmin etməkdir

Ölkəmizdə müasir, yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal edən sənaye zonaları fəaliyyət göstərir ki, bu da aparılan sənayeləşmə siyasətinə uyğun olaraq qeyri-neft iqtisadiyyatının inkişafına xidmət edir. Həmin sənaye zonalarının tərkib hissəsi olan əczaçılıq sənayesi Azərbaycanda qeyri-neft iqtisadiyyatının əsas bölməsi olmaqla, ümumilikdə, sənayedə əlavə dəyərin artmasına mühüm töhfə verən amillərdəndir. Bu sahə, eyni zamanda, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə səbəb olur.

Qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin yaradılmasını təmin edir, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılmasına imkan yaradır. Əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviq edilməsini sürətləndirir. İstehsal sahəsində əhalinin məşğulluğunun artırılmasını təmin edir.











Ölkəmizdə yeri yaradılan dərman zavodları, eyni zamanda Macarıstanın məşhur sənaye korporasiyaları ilə birgə əməkdaşlıq çərçivəsində qurulur. Bu ölkənin Avropa bazarında xüsusi payı olan "Gedeon Richter" şirkəti Azərbaycanda əczaçılıq sənayesinin inkişafına töhfə verməkdə, bir sıra özəl əczaçılıq müəssisələrinin yaradılmasına öz dəstəyini göstərməkdədir. Dərman istehsalı müəssisələrinin yaradılmasında macar mütəxəsisiləri qabaqcıl texnologiya və avadanlıqlardan, Avropanın aparıcı şirkətlərinin mühəndislik işlərindən istifadə olunacaq. Belə ki, əczaçılıq zavodu yüksək dərəcəli izolyasiya, avtomatlaşdırma və öz sinfində ən yaxşı istehsal həllərinə malik yeni nəsil dərman istehsalı GMP istehsal praktikası, həmçinin ÜST Texniki Hesabat siyahısı, ISPE Qabaqcıl Təcrübə Təlimatının tələblərinə və digər beynəlxalq norma və qaydalara uyğun təchizat şəbəkəsi qurmaqdadır.



### Pirallahı Sənaye Parkı istehsal zəncirində payını artırır

Həmin sənaye zəncirinin mühüm bir həlqəsi kimi Pirallahı Sənaye Parkında son illərdə yaradılan müəssisələrin fəaliyyəti də mühüm əhəmiyyət daşıyır. Dərman istehsalı üzrə ixtisaslaşmış və bu sahənin inkişafına hesablanmış
Pirallahı Sənaye Parkı dövlət başçısının 2016-cı ildə imzaladığı müvafiq sərəncama əsasən yaradılıb. Sənaye Parkının başlıca məqsədi ölkədə bir çox dərman məhsullarına olan tələbatı tam ödəyib, xaricə məhsul satışını həyata keçirməkdir. Parkda 7 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və parkın investisiya həcmi 129 milyon manata yaxındır. İndiyə kimi sahibkarlar bu sahəyə 56 milyon manat civarında investisiya yatırıblar ki, bunun da sayəsində 150-dən çox daimi iş yeri yaratmaq mümkün olub.

Hazırda 7 rezidenti olan parkın 2 müəssisəsi fəaliyyət göstərir. Onlardan biri "Hayat Pharm" əczaçılıq şirkəti 2020-ci ildən tam fəaliyyətə başlamaqla dərman sənayesinin inkişafında və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynamaqdadır. Müəssisələrdə birdəfəlik şprislər, sterilləşdirilmiş damardaxili kateterlər, infuziya dəsti, lateks steril cərrahi əlcək, diabeton MR və digər məhsulların istehsalı həyata keçirilir. Hazırda qanda şəkəri təyin edən cihaz (qlukometr) və striplərin, qan depolama və test qablarının, birdəfəlik üçkomponentli şprislərin, bioloji aktiv qida əlavələrinin, tablet, kapsul, jelatin kapsul, toz suspenziya, sirop və digər dərman məhsullarının istehsalı üzərində iş gedir. Sənaye Parkının rezidenti "R-Pharm" zavodunda üç növ insulinin - "RinGlar", "RinFast" və "RinFast Mix" lokallaşdırılması və eyni zamanda bu preparatların ölkə daxilində satışa çıxarılması nəzərdə tutulur.

Pirallahı Sənaye Parkında yaxın vaxtlarda istehsala açılması nəzərdə tutulan "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin də dərman vasitələrinin istehsalında xüsusi payı olacaq. Azərbaycan İnvestisiya Şirkəti, Türkiyənin "GEN İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti və "SİA Pharmaceutical" MMC tərəfindən yaradılan bu müştərək müəssisə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi əsasında qurulmaqdadır. Zavodda 42 adda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq ki, bu da ölkəmizdə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödənilməsini daha da gücləndirəcək və idxaldan asılılığı xeyli azaldılacaq. İllik istehsal gücü 50 milyon qutu nəzərdə tutulan zavodda istehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, "Made in Azerbaijan" brendi ilə region ölkələrinə də ixracı planlaşdırılır.

### "Diamed" dərman sənayesinin liderlərindən birinə çevrilir

Ölkəmizdə dərman sənayesində öz imkanlarını artıran müəssisələrdən biri də "Diamed" dərman istehsalı zavodudur. "Diamed Development Group" MMC-nin tərkibində olan zavodun istehsal prosesi ən yeni texnologiyaların cəlb edilməsi ilə keyfiyyətli dərman təminatını həll etməkdədir. Zavodda müxtəlif adlarda, geniş çeşiddə NaCl, Ringer; Ringer laktat, qlükoza və müxtəlif həcmlərdə həyati vacib zəruri venadaxili dərman məhlulları istehsal olunur. Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə (GMP), istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanmış zavodda istehsal olunan məhsullar müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılır. Məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.

Beləliklə, ölkəmizdə istifadəyə verilən dərman zavodları və əczaçılıq müəssisələri yerli tələbatın ödənilməsi, idxaldan asılılığın minimallaşdırılması ilə yanaşı, bu bazarda rəqabətin genişlənməsini təşviq etməklə, qiymətlərin aşağı düşməsini də stimullaşdıracaq. Eyni zamanda, dərmanların keyfiyyəti ilə bağlı çətinliklərin aradan qalxmasında, əlçatanlığın təmin olunmasında mühüm rol oynayacaq.

Əczaçılıq müəssisələrinin istehsal şəbəkəsinin genişlənməsi həm də ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə verməklə, iqtisadiyyatın şaxələndirilməsi və idxalı əvəzləyən milli prioritetlərin reallaşmasına imkan yaradır.

***E.CƏFƏRLİ***

# Gözəl Kəlbəcər, Günün mübarək!

Bu gün qalib Azərbaycanda işğaldan azad edilmiş ərazilər üzrə daha bir şəhər günü qeyd edilir. Ölkəmizin dilbər guşələrindən biri olan Kəlbəcər 2020-ci il noyabrın 25-də işğaldan azad edilib - üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq döyüşsüz Azərbaycana təhvil verilib. Həmin gün də Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Kəlbəcər Şəhər Günü kimi qeyd edilir.

İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri ölkəmizin həyatına böyük zəfərlərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatından sonra daxil olub. Prezident İlham Əliyevin əsas memarı olduğu həmin qələbələr son 200 illik tariximizin ən parlaq səhifələrini təşkil edir. Dövlətimizin başçısının müvafiq sərəncamları ilə respublikamızda işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də tarixi zəfərlərimizin ölkəmiz üçün müstəsna önəm daşıdığını bir daha təsdiqləyir. İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin bayram kimi qeyd olunması eyni zamanda xalqımızın vətənpərvərliyini, yurd yerlərinə bağlılığını təcəssüm etdirir.







## AXC-Müsavat cütlüyünün xəyanəti...

Azərbaycan xalqı ötən əsrin doxsanıncı illərinin əvvəllərində Qarabağın və ətraf ərazilərin işğal altına düşməsi tarixini heç vaxt yaddan çıxarmayacaq. Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcər 1993-cü il 2 aprel tarixində işğala məruz qalıb. O dövrdə düşmənin əsas hədəflərindən biri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaratmaq idi. Buna yol verməmək Azərbaycanın keçmiş rəhbərliyinin bir nömrəli vəzifəsi olmalı idi. Lakin həmin illərdə respublikamızda hakimiyyətdə olan iqtidarın səhlənkarlığı və məsuliyyətsizliyi ucbatından sərhəd bölgələrinin müdafiəsi üçün zəruri tədbirlər görülmədi.

Prezident İlham Əliyev cari il avqustun 21-də birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində buraya köçən sakinlərlə görüşdəki çıxışında rayonun işğal tarixini bir daha xatırladıb. Dövlətimizin başçısı təəssüf hissi ilə bildirib ki, ovaxtkı Azərbaycan rəhbərliyi xəyanətkarlıq və satqınlıq siyasəti apararaq doğma diyarımızı qoruya bilməmişdir. Hələ 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində mümkün olmuşdur. Alınmaz qalamız Şuşa demək olar ki, ermənilərə təhvil verilmişdir. Mənfur cütlük bundan istifadə edərək bir ay sonra məhz Şuşa və Laçın faciəsi üzərində hakimiyyətə gəlib. Kəlbəcərin 1993-cü il aprelin əvvəlində işğal altına düşməsi məhz ovaxtkı xəyanətkar rəhbərliyin bəd əməllərinin nəticəsi olmuşdur. “Kəlbəcərin işğalı bizim üçün bütün başqa yaşayış məntəqələrimizin işğalı kimi böyük faciə idi”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Xatırladaq ki, ümumi sahəsi 3054 kv.km olan Kəlbəcər 1930-cu ilin 8 avqustunda inzibati rayon statusu alıb. Qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgüsünə daxildir. Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km qərbdə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir.

Kəlbəcərin işğalına qədər rayonda 19 ibtidai, 44 orta, 33 natamam orta məktəb, 1 qiyabi orta təhsil məktəbi, 1 peşə məktəbi, 1 texnikum (Tibb Texnikumu), 16 uşaq bağçası, günü uzadılmış 38 qrup, 41 mədəniyyət evi, 44 klub, 1 şəhər mərkəzi xəstəxanası, 1 uşaq xəstəxanası, 9 kənd xəstəxanası, 23 kənd həkim ambulatoriyası, 75 feldşer-mama məntəqəsi və sair fəaliyyət göstərirdi.

Mərkəzi hakimiyyətdən kömək almayan kəlbəcərlilər 1993-cü il mart ayının 23-dən aprel ayının 2-dək özlərindən qat-qat yaxşı təchiz olunmuş ermənilərə qarşı mərdliklə vuruşublar. 1993-cü ilin qiymətlərinə görə işğal nəticəsində Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53340 nəfər adam qovulub, 511 dinc əhali öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb. Kəlbəcərin işğalından əvvəl isə Ağdaban faciəsi baş verib.

## Azərbaycanın hərbi-diplomatik uğuru

Cox doğru olaraq Kəlbəcərin işğaldan azad edilməsi ölkəmizin hərbi-diplomatik uğuru kimi dəyərləndirilir. Məlum olduğu kimi, Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcərdən qeyd-şərtsiz çıxardılması tələb olunurdu. Ancaq BMT TŞ-nin bu və digər üç qətnaməsi təxminən üç onillik ərzində yerinə yetirilmədi. Azərbaycan ərazi bütövlüyünə özünün Müzəffər Ordusunun şanlı Qələbəsi sayəsində nail oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimiz XXI əsrin müharibəsini apardı və düşməni acınacaqlı məğlubiyyətə uğratdı. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Ordumuz 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad etdi. Acınacaqlı məğlubiyyət acısı yaşayan Ermənistan 2020-ci il noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Həmin sənədə əsasən məğlub Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından döyüşsüz çıxmaq öhdəliyi götürdü. Razılaşmaya əsasən, Kəlbəcər noyabrın 25-də tamamilə boşaldılaraq Azərbaycana təhvil verildi. Həmin tarixdə Azərbaycanın Silahlı Qüvvələri rayon ərazisinə daxil olaraq burada nəzarəti ələ aldı.

## “Bizim işimiz quruculuqdur”

Dövlətimizin başçısı bəhs olunan görüşdə bildirib ki, bizim işimiz quruculuqdur. Postmüharibə dövründə işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Kəlbəcərdə də bərpa və quruculuq dövrü başlayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tez-tez Kəlbəcərə səfər etməklə burada müxtəlif istiqamətlərdə həyata keçirilən layihələrin icrasını bilavasitə nəzarətdə saxlayırlar. Onların azad Kəlbəcərə ilk səfərləri 2021-ci il avqustun 16-da baş tutub. Həmin səfər çərçivəsində Prezident İlham Əliyev Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq tunelin təməlini qoyub, “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri ilə tanış olub, arıçılarla görüşüb, Dövlət bayrağını ucaldıb. Sonrakı səfərlər isə daha çox sayda təməlqoyma və açılış tədbirləri ilə yadda qalıb.

Cari il avqustun 20-də Kəlbəcərə Gəncədən ilk köç karvanı yola salınıb. “Böyük Qayıdış” proqramının birinci mərhələsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün infrastruktur layihələri də icra edilir. O cümlədən müxtəlif istiqamətlərdən çəkilən yollar Kəlbəcərə gediş-gəlişi əhəmiyyətli dərəcədə asanlaşdırmaq məqsədi daşıyır. Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən ən mühüm infrastruktur layihələrindən biri də uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Bu yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun inşası qalib Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirir.

*Mübariz ABDULLAYEV*

# Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

## Azərbaycan və İsrail enerji-ticarət əməkdaşlığını artırmaq niyyətindədir

İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin İsrailə işgüzar səfəri çərçivəsində Azərbaycan Hökuməti ilə İsrail Hökuməti arasında Birgə Komissiyanın 4-cü iclası keçirilib. İclasda enerji, ticarət, investisiya, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlığa dair müzakirələr aparılıb. Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarov vurğulayıb ki, Azərbaycan İsraillə əməkdaşlığı strateji baxımdan mühüm hesab edir və əlaqələrin daha da genişləndirilməsində maraqlıdır. Hər iki tərəf əməkdaşlığı dərinləşdirmək üçün qarşılıqlı səyləri artırır ki, bu, iqtisadi-ticari-investisiya dinamikasını yüksəldir.

M.Cabbarov qeyd edib ki, hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail şirkətləri maliyyə və qida texnologiyaları, kənd təsərrüfatı və səhiyyə sahələrində fəal iş həyata keçirir. Bu da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və texnoloji inkişafı baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur.

### Hökumətlərarası Birgə Komissiya əlaqələrin güclənməsində faydalı platformadır

Azərbaycan və İsrail arasında iqtisadi əlaqələr son illərdə daha da inkişaf edərək yeni sahələrdə birgə layihələrin icrası üçün dərin zəmin yaratmaqdadır. Hər iki ölkənin biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin, davamlı xarakter alan biznes-forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalar kimi mühüm yer tutur. İsrailin maliyyə naziri Zeev Elkinin də vurğuladığı kimi əlaqələrin daha da gücləndirilməsi, yeni sahələrdə fəaliyyət imkanlarının araşdırılmasında Birgə Komissiya mühüm platforma kimi faydalı nəticələrin əldə olunmasına töhfə verir.

Həmçinin, İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır.



### Biznes forumlar iqtisadi imkanları artırır

İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında mühüm yer tutur. Bu ölkə ilə respublikamız arasında qarşılıqlı investisiya, həmçinin energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. İşgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi və İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması üzrə işlər davam etdirilir. İsrail şirkətləri ilə həmçinin, sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq edilir. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.

Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlaması münasibətlərin yeni mərhələyə yüksəlməsində təkanverici rol oynayıb, bir sıra sahələrdə birbaşa təmaslar üçün hüquqi-iqtisadi sütunlar yaradıb.

Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan-İsrail Biznes forumları da mühüm rol oynamaqdadır. Tərəflər arasında ötən illərdə imzalanmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq sazişi, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında” konvensiya, iqtisadi sahəyə dair anlaşma memorandumları ticari-investisiya dinamikasını artırıb. Son illərdə ticari mübadilələrin həcmləri artaraq 1 milyard dollara yaxınlaşıb.



### Kosmik sənayedə müştərək uğurlar

İsrail və Azərbaycan arasında son illərdə müasir sənaye quruculuğu, süni intellekt, kibertəhülkəsizlik sahələrində əməkdaşlıq daha intensivləşib. Azərbaycanın 2026-cı ildə fəzaya buraxmağa hazırlaşdığı növbəti optik müşahidə peykinin hazırlanmasında israilli peşəkar mütəxəssislər də iştirak edir. “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında imzalanmış müqaviləyə əsasən, “Azersky-2” kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur. Dünyanın ən güclü texnologiya şirkətlərindən olan “Israel Aerospace Industries” şirkəti yeni peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağında Azərbaycanlı mütəxəssislərə köməkliyini göstəməkdədir. “IAI” proqram çərçivəsində “Azersky-2” üzrə iki peyk hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin orbitə çıxarılmasından sonra 2028-ci ildə daha bir “Azersky-2” qurğusu fəzaya buraxılacaq.

### Süni zəka və kibertəhlükəsizlik sahəsində yeni platforma

“İsrael Aerospace Industries” şirkəti dünyada unikal sənaye və kosmik mallar tədarükçüsü olmaqla Azərbaycanda yeni innovasiyaların təşviqində və yeni nəsil texnologiyaların hazırlanmasında da dəstəyini göstərmək niyyətindədir. Süni zəka layihələrində tərəfdaşlıq üzrə səmərəli platforma qurulmaqdadır. Ölkələrimiz arasında kibertəhlükəsizlik üzrə də yeni imkanlar dəyərləndirilir. İsrailin “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin təsis edilməsindən sonra Azərbaycanda kibertəhlükəsizlik sahəsində yeni platformanın qurulması planlaşdırılır ki, bu da kibertəhlükəsizlik məhsullarının araşdırılması və məhsul hazırlığı kimi starteji hədəflərin müəyyən edilməsində mühüm rol oynayacaq.

Azərbaycanın əlverişli işgüzar mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq layihələri, burada yaradılan sənaye zonalarının fəaliyyəti də israilli iş adamları üçün maraq doğurur. Onlar bu bölgədə “ağıllı texnologiyaların” tətbiqi, həmçinin aqrar layihələrdə iştirakı nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# YAP nümayəndə heyəti Braziliya Federativ Respublikasında səfərdə olub








Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Mərkəzçi Demokrat İnternasionalının (IDC-CDI) dəvəti ilə 2025-ci il 20-23 noyabr tarixlərində Braziliya Federativ Respublikasında səfərdə olub.

Noyabrın 21-də nümayəndə heyəti San-Paulu şəhərində IDC-CDI, Braziliyanın Sosial Demokrat Partiyasının (PSD) Demokratik Məkan Fondu və Konrad Adenauer Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Demokratik müzakirə: sağmərkəzin siyasətdə körpülər qurması və həllər təklif etməsi" mövzusunda forumda iştirak edib.

Forumun açılış mərasimində IDC-CDI-ın Prezidenti, Kolumbiyanın sabiq Prezidenti Andres Pastana, PSD Demokratik Məkan Fondunun Ali Məsləhət Şurasının Prezidenti, San-Paulu Ştatının Hökumət və İnstitusional əlaqələr üzrə katibi, San-Paulunun sabiq meri, Braziliyanın dövlət naziri Gilberto Kassab və Konrad Adenauer Fondunun Braziliyadakı nümayəndəsi Maksimilian Hedrix çıxış ediblər. Yeni dünya nizamına keçid prosesinin geniş vüsət aldığı müasir dövrdə qlobal kataklizmlərin hökm sürdüyü, bu səbəbdən də milli, regional və beynəlxalq təhlükəsizlik məsələlərinin aktual çağırış kimi xalqlar və dövlətlərin qarşısında dayandığı qeyd olunub. Bildirilib ki, hazırda bəşəriyyətin sağlam gələcəyi naminə intensiv dialoqa ehtiyac duyulur və bu kontekstdə sosial məsuliyyət daşıyıcısı kimi siyasi partiyaların da üzərinə mühüm vəzifələr düşür. Qarşılıqlı faydalı əməkdaşlıq şəraitində milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına riayət etməklə müxtəlif ölkələri təmsil edən siyasi partiyaların ümumbəşəri dəyərlər və ortaq maraqlar naminə səylərinin birləşdirilməsinin vacibliyi vurğulanıb.

"Dəyişikliklər dövründə ekstremal yanaşmalar arasında idarəetmə", "Dəyişən dünyada sağmərkəz narrative", "Mürəkkəb problemlərə realist həllər" mövzularında panel sessiyaları ilə öz işini davam etdirən forumda, həmçinin müasir dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik institutların gücləndirilməsi, media və vətəndaş cəmiyyəti təsisatlarının dəstəklənməsi, eləcə də xalqlar arasında körpülərin qurulması üçün ideoloji qütbləşmənin azaldılması, etnik zəmində münaqişələrin qarşısının alınması və sivilizasiyalararası dialoqun təşviqində siyasi partiyaların rolu məsələləri müzakirə olunub.

Həmin gün forum iştirakçıları San-Paulu İncəsənət Muzeyini də ziyarət ediblər.

Noyabrın 22-də isə YAP nümayəndə heyəti IDC-CDI İcra Komitəsinin iclası və Nizamnamə Baş Assambleyasında iştirak edib.

İcra Komitəsinin 2025-ci il 30 may tarixində Kot-d'İvuar Respublikasında keçirilmiş son iclasının protokolu təsdiq edildikdən sonra Andres Pastrana, Baş katib Antonio Lopez-İzturiz və digər rəsmilərin hesabat xarakterli çıxışları dinlənilib. İcra Komitəsinə yeni üzvlərin seçilməsi və qətnamə layihələrinin qəbulundan sonra isə xüsusi nümayəndələr regional hesabatlarını təqdim ediblər.

IDC-CDI Nizamnamə Baş Assambleyasında isə təşkilat rəhbərliyinin çıxışlarından sonra 2026-cı il üçün fəaliyyət planı təqdim olunub. Daha sonra təşkilatın 2026-cı il büdcəsi təsdiq edilib, səsvermə nəticəsində prezident və vitse-prezidentlər seçilib.

YAP nümayəndə heyəti noyabrın 22-də PSD Demokratik Məkan Fondu tərəfindən mədəni proqram çərçivəsində təşkil olunan tədbirə də qatılıb.











Səfər zamanı, həmçinin YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyası Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara və Macarıstanın hakim Fides partiyasının vitse-prezidenti, Avropa Parlamentinin üzvü Kinqa Qal ilə görüşüb. Görüşlər zamanı partiyalararası əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Bakıdan Belemə uzanan yol

## COP-a sədrlik Azərbaycandan Braziliyaya təhvil verilib

Xəbər verildiyi kimi, noyabrın 10-dan 22-dək Braziliyanın Belem şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 30-cu Sessiyası (COP30), noyabrın 6-7-də isə Sessiyanın Liderlər Zirvəsi təşkil olunub. Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) heyətinin COP30-da iştirakına dair mətbuat məlumatında bildirilib ki, COP30-un rəsmi açılış günündə COP-a sədrlik Azərbaycan Respublikasından Braziliyaya təhvil verilib.

**Azərbaycanın ev sahibliyi etdiyi COP29-un tarixi nəticələri**

COP29-un sədri, Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev COP30-un açılış sessiyasında çıxış edərək ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində əldə edilmiş tarixi nəticələr, eləcə də ölkəmizin COP-a sədrlik etdiyi dövr ərzində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib.

Qarşımızda iki nümunə var - Bakı və Belem nümunələri. Bu iki nümunə bir-birindən kəskin şəkildə fərqlənir. Braziliyanın ev sahibliyi etdiyi tədbirdə yüksəksəviyyəli nümayəndələrin iştirakı əhəmiyyətli dərəcədə məhdud olub. Bundan başqa, tədbirdə daxili ziddiyyətlərdən qaynaqlanan bir sıra problemlər yaşanıb, gündəlik dəqiq olmayıb, təşkilat komitəsi tez-tez dəyişib. Qonaqların yerləşdirlməsində də müəyyən çətinliklər yaşanıb. Konfransın son günündə baş verən yanğın da COP30-da qeydə alınan xoşagəlməz hadisələr sırasındadır.

Məsuliyyətli dövlət olan Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 isə tarixə nümunəvi bir tədbir kimi düşüb. Azərbaycanın COP29-a yüksəksəviyyəli hazırlıqlar görməsi və Bakıda yaxşı nəticələrin əldə olunması Azərbaycanın gücünün və məsuliyyətinin təsdiqi ilə yanaşı, həm də ölkəmizin iqlim çağırışlarına çox həssas yanaşmasının bariz ifadəsidir. Respublikamız hər zaman öz gündəliyini qlobal çağırışlarla uzlaşdırıb. O cümlədən Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən dövlətdir. Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Ölkəmiz Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb. Azərbaycan mütəmadi olaraq iqlim dəyişikliyi ilə bağlı əsas məsələlər və həll yollarını tərtib etməklə Milli Məlumat hazırlayır və müvafiq qaydada təqdim edir. Azərbaycan həmçinin COP tədbirlərində fəal iştirak edir. Xatırladaq ki, Prezident İlham Əliyev 2023-cü il dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin




açılış mərasiminə qatılıb.

Eyni zamanda, Azərbaycan istehsalatda geniş ekoloji hədəflər müəyyənləşdrən ölkələr sırasında yer alır. Respublikamızı təmsil edən SOCAR 2035-ci ilə qədər "Sıfır metan" hədəfinə yaxınlaşmanın və 2050-ci ilə qədər "Xalis sıfır" hədəflərinə çatmanın şirkətin əsas məqsədlərindən olduğunu bildirib. Bundan başqa, respublikamızda zəngin potensiala əsaslanmaqla "yaşıl enerji"yə keçid də uğurlu bir prosesə çevrilib.

Azərbaycanın bu kimi reallıqları, həmçinin dövlətin qətiyyətli siyasi iradəsi COP29-da substantiv nəticələrin əldə olunmasına güclü şəkildə təsir göstərib. Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasını COP29-un mühüm uğurlarından biri kimi dəyərləndirrmək mümkündür. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub. Eləcə də, İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması böyük nailiyyətdir.

**COP30-un ən fəal iştirakçılarından biri**

Azərbaycan COP29-a uğurlu ev sahibliyi etməklə öz missiyasının tamamlandığını düşünmür. Hazırda iqlim çağırışlarının aktuallığı çox böyükdür. Buna görə də respublikamız bu sahədə daha güclü beynəlxalq həmrəyliyə nail olunmasına yeni töhfələr vermək istəyir.

Azərbaycanın COP30-da fəal iştirakı bunu əyani şəkildə təsdiqləyir. XİN-in mətbuat məlumatında vurğulandığı kimi, Liderlər Zirvəsində Azərbaycan Respublikasını Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Milli Məclisin sədri Azərbaycan Respublikası adından bəyanat səsləndirib və bir sıra ölkələrin rəhbər şəxsləri ilə ikitərəfli görüşlər keçirib.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev COP29-un sədri qismində COP30 çərçivəsində təşkil olunmuş bir sıra tədbirlərdə iştirak və çıxış edib, digər nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirib. Eyni zamanda, COP30-un hər iki seqmentində Xarici İşlər Nazirliyinin heyəti də iştirak edib. Konfrans çərçivəsində XİN nümayəndə heyəti konfransın yekununda qəbul edilməsi planlaşdırılan qərarların qəbulu istiqamətində aparılan danışıqlara cəlb edilib və 2 mühüm qərarla bağlı danışıqların aparılması və həmin sənədlərin razılaşdırılması Azərbaycana həvalə olunub.

COP30-un sədri Andre do Laqo tərəfindən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliya xarici işlər nazirinin müavini Mauricio Lyrioya verilmiş COP31-in ev sahibliyinə namizəd ölkələr olan Türkiyə və Avstraliya arasında danışıqların aparılması səlahiyyəti çərçivəsində, 12 gün ərzində aparılmış intensiv danışıqlardan sonra COP31-in ev sahibliyinin Türkiyəyə verilməsi barədə qərar qəbul edilib.

XİN heyəti, həmçinin COP29 Sədrinin Fəaliyyət Gündəliyi çərçivəsində irəli sürülmüş sülh və miqrasiya, su, səhiyyə, şəhərlər və iqlim şəffaflığı mövzularında təşəbbüslərlə bağlı 5 tədbir keçirib. Bundan əlavə, Azərbaycan nümayəndə heyəti yenilənən enerji, hidrogen və kənd təsərrüfatı təşəbbüsləri ilə bağlı bir neçə tədbirin keçirilməsinə həmtəşkilatçı qismində dəstək göstərib.

Bununla yanaşı, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq, Azərbaycan və Braziliya tərəfi qlobal iqlim maliyyəsinin 1.3 trilyon ABŞ dollarına yüksəldilməsinə dair "Bakıdan Belemə Yol Xəritəsi"ni hazırlayaraq COP30 çərçivəsində təqdim edib.

***Mübariz FEYİZLİ***

# 2 milyon dollar və 28 kq qızıla dəyişdirilən 775 nömrəli sərəncam

1990-cı illərin əvvəli çox da uzaq tarix deyil - orta yaşlı insanlarımız bu tarixi yaşayıb və həmin dönəmdə baş verənləri də yaxşı xatırlayırlar. Yenicə müstəqllik əldə etmiş ölkədə cərəyan edən siyasi çəkişmələr, AXC-Müsavat qruplaşmasının hakimiyyət hərisliyindən doğan xəyanətlər, hətta bu qruplaşmanın içindəki kiçik dəstələrin “əyalət qubernatoru” olmaq həvəsi, ayrı-ayrı regionları özününküləşdirmək cəhdi unudulmayıb. Ayrı - ayrı funksionerlərin adları ilə “adlandırılan” “batalyonlar” məhz “adını daşıdığı” şəxslərin lokal maraqlarını təmsil edir, Qarabağ uğrunda deyil, məhz həmin maraqlar uğrunda savaşırdı.

Maraqlıdır ki, mərkəzdə də proses eyni plan üzrə, amma fərqli trayektoriyada inkişaf edirdi. Əksər AXC-Müsavat kadrları oturduqları kreslodan yalnız talançılıq məqsədi ilə istifadə edir, əllərinə düşmüş fürsəti dəyərləndirməyə çalışırdılar. Bunu özləri etiraf edirdilər - Əbülfəz Elçibəyin iştirakı ilə keçirilmiş toplantının kadrları söylənilənlərin bariz sübutudur. Orada Elçibəy özü etiraf edir ki, respublikada rüşvət baş götürüb gedir, talan baş alıb gedir.

Amma bəzi keçmiş AXC-Müsavat hakimiyyətinin nümayəndələri



Ә.М.Мустафајевин "Халг үчүн маллар"
Азәрбајҹан дөвләт консерни идарә
һеј'әтинин сәдри вәзифәсиндән азад
едилмәси һаггында

Әһмәд Мирзә оғлу Мустафајев вердији әризәјә көрә "Халг үчүн маллар" Азәрбајҹан дөвләт консерни идарә һеј'әтинин сәдри вәзифәсиндән азад едилсин.

Азәрбајҹан Республикасы Президентинин
сәлаһијјәтини һәјата кечирән
Азәрбајҹан Республикасы
Али Советинин сәдри И.Гәмбәров

Бакы шәһәри, "22" мај 1992-ҹи ил
N 775



Ә.М.Мустафајевин "Халг үчүн маллар"
Азәрбајҹан дөвләт консерни идарә
һеј'әтинин сәдри вәзифәсинә бәрпа
едилмәси һаггында

I. Әһмәд Мирзә оғлу Мустафајев "Халг үчүн маллар" Азәрбајҹан дөвләт консерни идарә һеј'әтинин сәдри вәзифәсинә бәрпа едилсин.

2. "Ә.М.Мустафајевин "Халг үчүн маллар" Азәрбајҹан дөвләт консерни идарә һеј'әтинин сәдри вәзифәсиндән азад едилмәси һаггында" Азәрбајҹан Республикасы Президентинин 1992-ҹи ил 22 мај тарихли 775 нөмрәли фәрманы гүввәсини итирмиш һесаб едилсин.

Азәрбајҹан Республикасы Президентинин
сәлаһијјәтини һәјата кечирән
Азәрбајҹан Республикасы
Али Советинин Сәдри И.Гәмбәров

Бакы шәһәри, "27" мај 1992-ҹи ил,
N 799.

elə bilirlər ki, onların hakimiyyət dövrü zaman etibarı ilə uzaqlaşdıqca həqiqətlər də yaddan çıxıb gedir. Məsələn, 1992-ci ilin mayında Azərbaycan Respublikası Ali Sovetinin sədri olmuş İsa Qəmbər bugünlərdə internet resurslarında iddia edir ki, guya onların hakimiyyəti zamanı rüşvət alınmayıb, bununla bağlı tutarlı əsas da yoxdur. Amma ovaxtkı Ali Sovet, bugünkü “Müsavat” sədri unudur ki, əlahəzrət fakt deyilən bir nəsnə var. Söhbət vaxtilə 2 milyon dollar və 28 kiloqram qızıl alıb verilən sərəncamın geri götürülməsindən gedir. 1992-ci il mayın 22-də Ə.M.Mustafayevin “Xalq üçün mallar” konserni idarə heyətinin sədri vəzifəsindən azad edilməsi barədə 775 saylı sərəncam verən İsa Qəmbər 5 gündən sonra 799 saylı sərəncamla öz əvvəlki sərəncamını geri götürüb. Bu, idarəçilik tarixində görünməmiş hal idi - sərəncamın geri götürülməsinin səbəbi isə...

Bəli, İsa Qəmbər illərdir ki, bu ittihamdan yayınır, qaçır. Amma hesab etməməlidir ki, ötən 32 illik zaman bu həqiqətin və faktın üstünə kölgə salır - yox. Faktlar hər zaman həqiqətin işığında öz aktuallığını qoruyur.

***MƏNSUR***

# Mənəvi dəyərlərin qorunması naminə...

## Sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik edənlər cəzalandırılacaq

Noyabrın 24-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin onlayn formatda birgə iclası keçirilib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq bildirib ki, gündəliyə 1 məsələ-İnzibati Xətalar Məcəlləsində və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxil edilib. İclasda mənəvi dəyərlərin qorunması, gənclərin zərərli kontentdən müdafiəsi və internet mühitində məsuliyyət mexanizmlərinin dəqiqləşdirilməsi üçün yeni qanun layihəsinin hazırlanmasına ehtiyac yarandığı bildirilib. Vurğulanıb ki, qanun layihəsinin əsas məqsədi ictimai mənəviyyatı qorumaq, xüsusilə yeniyetmə və gəncləri sosial şəbəkələrdə yayılan zərərli və qeyri-etik informasiyadan müdafiə etmək, həmçinin internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirərək mövcud qanunvericiliyi təkmilləşdirməkdir.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qanun layihəsi barədə fikirlərini bildiriblər, onun cəmiyyətdə narazılığa səbəb olan neqativ halların qarşısını almağa təkan verəcəyini diqqətə çatdırıblar.

**Hansı hərəkətlər xırda xuliqanlıq sayılacaq?**

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən cəmiyyətə açıq hörmətsizlik ifadə edən, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlər xırda xuliqanlıq sayılacaq, inzibati həbs və cərimə tətbiq olunacaqlar. Layihəyə əsasən, belə xırda xuliqanlıq əlli manatdan yüz manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, 15 günədək müddətə inzibati həbs tətbiq olunacaq.

İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə görə beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, otuz günədək müddətə inzibati həbs tətbiq olunacaq. Həmin xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə min manatdan iki min manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunacaq. Həmin maddələrdə göstərilən əməllər Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq ediləcək.

Qeyd edilib ki, son zamanlarda kütləvi nümayiş etdirilməklə sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışların edilməsi ölkəmizdə geniş müşahidə olunur. Bu proses cəmiyyətə təsir edərək milli-mənəvi dəyərlərimizin deqradasiyasını sürətləndirir, xüsusilə yeniyetmə və gənclərə mənfi təsir göstərərək onların davranış modellərində dəyişiklik yaradır. Eyni zamanda, sosial şəbəkələrin istifadəçilərinin diqqətini daha çox cəlb edən paylaşımları önə çıxarmağa əsaslanan iş prinsipi bu cür qeyri-etik paylaşımları sürətlə daha geniş auditoriyaya çatdırır. Nəticədə, yaranan informasiya axını ictimai mənəviyyatımıza ciddi zərər vurur. Mövcud qanunvericilik yalnız müəyyən kateqoriya qadağan olunmuş məlumatlara görə məsuliyyət nəzərdə tutur. Mənəvi dəyərlərin qorunmasını təmin etmək, yeniyetmə və gənclərin zərərli informasiyadan müdafiəsini gücləndirmək, internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirmək və mövcud tənzimləməni təkmilləşdirmək üçün yeni qanun layihəsinin hazırlanması zərurəti yaranıb.

Bundan əlavə, internet informasiya ehtiyatından və ya informasiya-telekommunikasiya şəbəkəsindən istifadə etməklə fahişəliklə məşğul olmağa açıq çağırışların edilməsinə və ya kütləvi nümayiş etdirilməklə fahişəliklə məşğul olmaqla bağlı sövdələşməyə görə cərimələr də müəyyənləşir. İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni - 524.2-ci maddəyə əsasən, internet informasiya ehtiyatından və ya informasiya-telekommunikasiya şəbəkəsindən istifadə etməklə fahişəliklə məşğul olmağa açıq çağırışların edilməsinə və ya kütləvi nümayiş etdirilməklə fahişəliklə məşğul olmaqla bağlı sövdələşməyə görə beş yüz manat məbləğində cərimə ediləcək.

Bildirilib ki, son zamanlarda kütləvi nümayiş etdirilməklə sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışların edilməsi ölkəmizdə geniş müşahidə olunur. Bu proses cəmiyyətə təsir edərək milli-mənəvi dəyərlərimizin deqradasiyasını sürətləndirir, xüsusilə yeniyetmə və gənclərə mənfi təsir göstərərək onların davranış modellərində dəyişiklik yaradır. Mənəvi dəyərlərin qorunmasını təmin etmək, yeniyetmə və gənclərin zərərli informasiyadan müdafiəsini gücləndirmək, internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirmək və mövcud tənzimləməni təkmilləşdirmək üçün yeni qanun layihəsinin hazırlanması zərurəti yaranıb.




**Yayılması qadağan edilən informasiyaların dairəsi genişləndirilir**

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna isə yeni - 13-2.3.6-1-ci maddə təklif olunur. Bu maddəyə əsasən, internet informasiya ehtiyatında yerləşdirilməsinə yol verilməsi qadağan edilən informasiyaların dairəsi genişləndirilir. Layihəyə əsasən, internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yerləşdirilməsinə yol verməməlidir.

***Nardar BAYRAMLI***

# Birinci Forum...

## Şuşada Azərbaycan - Türkiyə Beyin Mərkəzlərinin nümayəndələri bir araya gəlib

Noyabrın 24-də Şuşa şəhərində Azərbaycan - Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu keçirilib. Forumda iki ölkənin aparıcı analitik qurumlarının rəhbərləri, ekspertlər və akademik çevrələrin nümayəndələri iştirak ediblər.



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən forum açılış nitqləri ilə başlayıb. BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycanla Türkiyənin hərbi, siyasi əməkdaşlığı artıq bir nümunədir. Onun sözlərinə görə, hazırda regionun siyasi mənzərəsi köklü şəkildə dəyişib: “Bir sıra istiqamətlər var ki, burada biz Türkiyə ilə sıx şəkildə əməkdaşlıq etməliyik. Hazırkı mərhələdə maksimum çalışmalıyıq ki, siyasətin əsas elementləri bir-birinə bənzər olsun. Cənubi Qafqazdakı vəziyyət, Ermənistanla normallaşma prosesi davam edir. Bu yaxınlarda Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycana gəlib. Ermənistanda indi sülhdən danışırlar, ancaq bunun arxasında da Azərbaycanın qələbəsi dayanır. Bu qələbə olmasa, onlar sülhdən danışmazdı. 2019-cu ildə Ermənistanın lideri “Qarabağ Ermənistandır” deyirdi. Bunları unutmaq olmaz”.

F.Şəfiyev Qərbdəki bəzi dairələrin təzyiq cəhdlərindən də bəhs edib. Onun fikrincə, birinci məsələ Zəngəzur dəhlizi, ikincisi isə Türk dünyası ilə bağlıdır. Mərkəzi Asiyaya da müxtəlif geosiyasi güclər tərəfindən təzyiq var, ona görə də biz birgə koordinasiyalı şəkildə işimizi aparsaq, öz məqsədlərimizə nail ola bilərik. “Üçüncü məsələ isə Yaxın Şərqdir. Azərbaycan bu məsələdə Türkiyə ilə birgə iş aparır. Burada da bəzi qüvvələr məqsədli şəkildə əleyhimizə yalan məlumat yayırlar. Ancaq Azərbaycan həmin bölgələrə əlindən gələn yardımı göstərməyə çalışır. Çox mütəşəkkil şəkildə media sahəsində müxtəlif diversiya ilə məşğul olan qüvvələr var”,-deyən F.Şəfiyev əlavə edib ki, Azərbaycan-Türkiyə Beyin Mərkəzlərinin Forumunu vacib məsələlərin müzakirəsi üçün bir platformaya çevirmək və bundan sonra da davam etdirmək niyyətindədirlər.

Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin (SAM) sədri Polat Safi çıxış edərək forumun regional inteqrasiya, strateji əməkdaşlıq və beyin mərkəzləri arasında əlaqələrin dərinləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. O, Azərbaycan - Türkiyə strateji müttəfiqliyinin regionda formalaşan yeni reallıqlar fonunda institusional əsaslarının və konstruktiv rolunun daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Çıxış edən Yaxın Şərq Araşdırmaları Mərkəzinin (ORSAM) prezidenti Kadir Təmiz isə bildirib ki, Ankara ilə Bakı arasında formalaşan strateji müttəfiqlik münasibətləri regionda baş verən proseslərin daha səmərəli idarə olunmasına imkan verir: “Mütəxəssislər bildirirlər ki, iki ölkə ayrı dövlətlər olsa da, maraqları və siyasətləri müxtəlif məqamlarda fərqlənə bilər. Lakin strateji baxışın və əsas prinsiplərin uyğunluğu bu müttəfiqliyin təməl şərtidir və bu, digər ölkələr üçün də qarşılıqlı əməkdaşlığın gücləndirilməsi baxımından ciddi mesajdır”.

Onun sözlərinə görə, Türkiyənin Orta Şərq siyasətini formalaşdıran əsas istiqamətlərin Azərbaycan-Türkiyə əməkdaşlığı ilə uyğunlaşdırılması müzakirə olunmalıdır. Türkiyənin bölgə siyasətinin üç aparıcı xətti xüsusilə diqqət çəkir. Bunlardan birincisi təhlükəsizlik, sabitlik yanaşmasıdır. İkincisi diplomatik əlaqə və regional əməkdaşlıqdır. Türkiyənin Orta Şərq strategiyasının üçüncü sütunu enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərini əhatə edən geoiqtisadi layihələrdir. “Üçüncü istiqamət xüsusilə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında mühüm rol oynayır. Zəngəzur dəhlizi, Orta Dəhliz, enerji ötürmə xətləri və logistika marşrutları iki ölkəni tamamlayıcı əməkdaşlıq modelinə çevirir. Bundan əlavə, Türkiyənin İraqla birgə həyata keçirdiyi “İnkişaf yolu” layihəsi - Basradan başlayıb Türkiyə üzərindən Avropaya uzanan nəqliyyat xətti bölgədə yeni iqtisadi inteqrasiya imkanları yaradır. Əgər gələcəkdə Suriyada vəziyyət sabitləşərsə, bu xəttin genişləndirilməsi mümkün ola bilər. Nəticədə, Türkiyənin Orta Şərq siyasətinin bu üç əsas istiqaməti - təhlükəsizlik, diplomatik və geoiqtisadi əlaqələr Azərbaycanla strateji tərəfdaşlığın daha da dərinləşməsinə xidmət edir. Bu model həm iki ölkənin regional nüfuzunu artırır, həm də Orta Şərq və Cənubi Qafqazda sabitlik və inkişaf üçün yeni platformalar yaradır”, - deyə o əlavə edib.

Qeyd edək ki, forum çərçivəsində Azərbaycan - Türkiyə münasibətlərində xarici siyasət, iqtisadi əməkdaşlıq, nəqliyyat-kommunikasiya layihələri və inteqrasiya gündəmini əhatə edən panel sessiyaları da keçirilib. Birinci sessiya “Azərbaycan və Türkiyənin xarici siyasətində əsas trendlər və əməkdaşlıq imkanları” mövzusuna həsr olunub. “AnewZ” media qurumunun baş redaktor müavini Orxan Amaşovun moderatorluğu ilə aparılan müzakirələrdə iki ölkənin regional təhlükəsizlik, xarici siyasət strategiyaları və əməkdaşlıq imkanları təhlil edilib. Mütəxəssislər Azərbaycan və Türkiyənin regional siyasətdə artan rolunu, əməkdaşlığın yeni istiqamətlərini və qarşılıqlı strateji koordinasiya mexanizmlərini müzakirə ediblər.

Forumun ikinci panel sessiyası isə “Azərbaycan-Türkiyə əməkdaşlığının dərinləşdirilməsi: TDT çərçivəsində inteqrasiya perspektivləri” mövzusuna həsr olunub. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Cavid Vəliyevin moderatorluğu ilə keçirilən paneldə, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc, İsmayıl Qaspiralı Xarici Siyasət İnstitutunun direktoru Əsma Özdaşlı, İbn Haldun Universitetinin Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin direktoru Yaşar Sarı, Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktoru Fərhad Məmmədov, Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmaç çıxış ediblər. Paneldə Türk Dövlətləri Təşkilatı daxilində siyasi, iqtisadi, humanitar inteqrasiya və institusional əməkdaşlıq perspektivləri təhlil olunub. Həmçinin Türk dünyasında inteqrasiya proseslərinin yeni mərhələyə keçməsi üçün prioritet istiqamətlər və institusional əlaqələrin gücləndirilməsi müzakirə edilib.

Üçüncü sessiyada isə Azərbaycan-Türkiyə münasibətlərində nəqliyyat-kommunikasiya və enerji tərəfdaşlığının rolu müzakirə edilib. Sessiyanın moderatoru Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Eldar Namazov olub. Paneldə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktorunun müavini Ramil Hüseyn, Türkiyə Araşdırma Fondunun vitse-prezidenti Enes Bayraklı, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Xəzər Universiteti Tarix və Arxeologiya Departamentinin müdiri Telman Nüsrətoğlu çıxış ediblər.

Sessiya çərçivəsində Zəngəzur dəhlizi, Transxəzər marşrutu və enerji kommunikasiyalarında qarşılıqlı əlaqələr dəyərləndirilib. Həmçinin regional nəqliyyat dəhlizləri, enerji əməkdaşlığının strateji prioritetləri və qlobal enerji təhlükəsizliyinə iki ölkənin töhfəsi müzakirə olunub.

Qeyd edək ki, Birinci Şuşa Forumu Azərbaycan və Türkiyə beyin mərkəzləri arasında institusional tərəfdaşlığın möhkəmlənməsi, ortaq elmi-analitik platformaların yaradılması və gələcək strateji təşəbbüslərin koordinasiyası baxımından əhəmiyyət kəsb edir.

***Nardar BAYRAMLI***

# Dünyaya yeni iqtisadi formul təqdim olunur

Azərbaycanın yürütdüyü siyasət geniş bir coğrafiyada yeni və mühüm reallıqlar formalaşdırıb. Postmüharibə dövründə verilən qətiyyətli qərarlar, irəli sürülən layihələr və tezislər, o cümlədən, bu layihələrin reallaşması istiqamətində aparılan fəaliyyət Mərkəzi Asiya - Cənubi Qafqaz bölgəsi üçün vacib perspektiv yaradır. Azərbaycan ayrı-ayrılıqda Mərkəzi Asiya ilə region arasında körpü rolunu oynayır, iqtisadi transformasiyanı gerçəkləşdirir, siyasi inteqrasiyanı və dialoqu irəliyə daşıyır. Paralel olaraq Cənubi Qafqazda sülh təşəbbüslərini reallığa çevirərək həm bölgəsəl, həm də qlobal anlamda yeni iqtisadi münasibətlər sistemi nümunəsi yaradır.

Azərbaycanın səyləri isə artıq bəhrəsini verir - Mərkəzi Asiya ilə Cənubi Qafqazın birgə sabit coğrafi-iqtisadi məkan kimi xarakterizə olunması qlobal diqqəti bu istiqamətə yönəldir. Bu ilin avqustunda Vaşinqtonda keçirilən görüşlərin ardından Şərq-Qərb kontenti üzrə yeni logistik seqment rolunu oynayacağı dəqiqləşən Zəngəzur dəhlizi (TRİPP) bölgələr arasında münasibətləri daha sıx və işgüzar müstəviyə daşıyacaq. Bu fakt bir neçə gün öncə Ermənistanın baş naziri Nikol Paşinyanın Qazaxıstana səfəri fonunda da təsdiqləndi. Verilən bəyanatlar, səsləndirilən fikirlər Azərbaycanın liderliyi ilə yaranan yeni situasiyanın gələcək üçün mühüm strateji yol xəritəsi anlamı daşıdığını təsdiqləyir.

## Sülh prosesi yüksək dəyərləndirilir

Qeyd edək ki, müzakirələrin əsas mövzusu ikitərəfli əlaqələrin, eləcə də regional sahədə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olub. Nikol Paşinyan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə geniştərkibli görüşdə bildirib ki, regionda baş verən hadisələr Ermənistan və Qazaxıstanın iqtisadi inkişafı üçün yeni imkanlar açır. Tokayev isə 2023-cü ildə Ermənistana rəsmi səfərinin, eləcə də hazırkı danışıqların nəticələrinin münasibətlərin dinamik inkişafına dəlalət etdiyini vurğulayıb.

Paşinyan Qazaxıstanın Ermənistan və Azərbaycan arasında sülh prosesindəki mühüm rolunu yüksək qiymətləndirib - Astanada jurnalistlərə verdiyi açıqlamada erməni baş nazir deyib ki, Qazaxıstan çox vacib bir vaxtda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Almatıda görüşü üçün platforma təmin etdi və bu danışıqlar gələcək inkişaf üçün çox vacib idi.

Baş nazir həmçinin xatırladıb ki, Alma-Ata Bəyannaməsi hazırda Ermənistan və Azərbaycan arasında sülh prosesinin əsasını təşkil edir. "Bu sənədin həm xüsusi siyasi, həm də simvolik əhəmiyyəti var", - deyə Paşinyan əlavə edib.



## Ermənistan Azərbaycanın yaratdığı reallıqları təsdiqləyir...

Azərbaycanın postmüharibə təşəbbüsləri öz effektiv nəticəsini ortaya qoyur və artıq bütövlükdə region ölkələri bu faktı təsdiqləyirlər. Nikol Paşinyan da Qazaxıstan Prezidenti ilə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib ki, Vaşinqton Bəyannaməsindən sonra Ermənistan TRIPP-in həyata keçirilməsinə diqqət yetirir, onun hüquqi çərçivəsi məyi öhdələrinə götürdüklərini vurğulayırlar", - deyə Paşinyan vurğulayıb və bunun həqiqətən də davamlı, sabit və etibarlı sülh üçün çox möhkəm təməl olduğunu və yaxın gələcəkdə sülh müqaviləsinin imzalanması və təsdiqlənməsi üçün səylər göstərilməli olduğunu bildirib: "Əlbəttə ki, bundan əvvəl biz artıq TRIPP layihəsi üzərində işləyirik ki, bu da, inanıram ki, Ermənistan və Qazaxıstan arasında ikitərəfli iqtisadi əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. Qazaxıstanın bu layihəyə ən yüksək səviyyədə maraq göstərməsindən çox məmnunuq. Bu layihə, əlbəttə ki, dəmir yolu rabitəsi, boru kəmərləri, elektrik xətləri, kabellər, eləcə də yol-nəqliyyat infrastrukturundan ibarət olacaq".



və tənzimlənməsi ilə bağlı razılığa gəlmək üçün ABŞ ilə fəal danışıqlar aparır. "Bildiyiniz kimi, Vaşinqton Bəyannaməsindən sonra əsas və fundamental məsələlər müəyyən edilib və razılaşdırılıb, ikitərəfli və beynəlxalq əlaqələr açılır. Vaşinqton Bəyannaməsinə uyğun olaraq, bütün bunlar ölkələrin ərazi bütövlüyü, suverenliyi, yurisdiksiyası və qarşılıqlılığı əsasında həyata keçiriləcək", - deyə Ermənistanın baş naziri qeyd edib. O, əlavə edib ki, Ermənistan və Azərbaycan Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyıblar. "Vurğulamaq istərdim ki, Ermənistan və Azərbaycan arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş də Vaşinqtonda paraflanmışdır və burada Alma-Ata Bəyannaməsi əsas prinsip kimi təqdim olunur. Razılaşdırılmış və paraflanmış bu mətndə Ermənistan və Azərbaycan keçmiş SSRİ respublikalarının müstəqil dövlətlərə çevrilməsi və aralarındakı inzibati sərhədlərin dövlət sərhədlərinə çevrilməsi faktına əsaslanaraq, bu əsasda hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü, suverenliyini və siyasi müstəqilliyini tanıdığını, bir-birinə qarşı ərazi iddialarının olmadığını təsdiqlədiyini və gələcəkdə bir-birinə qarşı ərazi iddiaları irəli sürmə-

## Birgə bəyanat imzalanıb...

Səfər çərçivəsində Nikol Paşinyan və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev 25 maddədən ibarət Birgə Bəyanat imzalayıblar. Bəyanatda iki ölkə arasındakı münasibətlər və onların strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi perspektivləri alqışlanıb. Tərəflər iki ölkənin rifahı və inkişafı, Cənubi Qafqazda və Mərkəzi Asiyada sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olması və möhkəmləndirilməsi naminə ikitərəfli, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv və effektiv əməkdaşlığı genişləndirəcəklərini bildiriblər. Həmçinin bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsiplərinə və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin müddəalarına əsaslanaraq, yalnız dinc vasitələrlə ən sürətli şəkildə həllini dəstəkləyəcəkləri də sənəddə əksini tapıb. Bəyanata əsasən tərəflər Vaşinqtonda imzalanmış Ermənistan, Azərbaycan və Amerika Birləşmiş Ştatları liderlərinin Üçtərəfli Bəyannaməsinin, eləcə də Ermənistan və Azərbaycan arasında sülh sazişi layihəsinin paraflanmasının əhəmiyyətini vurğulayıblar. Onlar Cənubi Qafqazda sülhün bərqərar olmasına yönəlmiş səyləri alqışlayıb, regionda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsinin prioritetini vurğulayıblar. Tərəflər əsas nəqliyyat təşəbbüslərinin təşviqinə yönəlmiş səyləri və nəqliyyat və tranzit sahələrində yüksək əməkdaşlıq potensialını məmnuniyyətlə qeyd ediblər. Mərkəzi Asiya və Cənubi Qafqazı birləşdirən marşrutların inkişafında birgə iştirak etməkdə maraqlı olduqlarını ifadə ediblər. Bundan başqa sənəddə göstərilib ki, tərəflər Avrasiya məkanında əlaqənin gücləndirilməsi, regional ticarət və nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi üçün əsas sahələr kimi multimodal logistika marşrutlarının inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar. Sənəddə Ermənistan Qazaxıstanın Azərbaycan vasitəsilə Ermənistana taxıl tədarükünün təşkilinə yönəlmiş səylərini yüksək qiymətləndirib. Birgə Bəyanatda Ermənistan ilə Qazaxıstan Respublikası arasında 2 sentyabr 1999-cu il tarixli Dostluq və Əməkdaşlıq Müqaviləsinin prinsiplərinin və müddəalarının həyata keçirilməsi əzmi də vurğulanıb.

**P.İSMAYILOV**

# Materiyanın çürük zənciri

## Saday Budaqlının "Fevral" povesti haqqında

Son illər povest janrı nədənsə gözdən salınmış kimi görünür. Yazıçılarımız ya povest yazmırlar, ya da yazdıqları povestlərin adını roman qoyurlar. Halbuki janrlar təsnifatında bu janrın öz yeri var. Bəzən kimsə rus ədəbiyyatından gəlmə bu janrın Qərbdə tanınmadığını, ayrıca forma kimi qəbul olunmadığını əsas gətirib, povestin romanla hekayənin arasından sıxışdırılıb çıxarılmasına bəraət qazandırır. Ancaq rus ədəbiyyatını qaba rus siyasətinin quyruğuna bağlamaq qətiyyən doğru deyil, azı ona görə ki, o siyasətə ən çox müqavimət göstərən, qarşı çıxan da elə rus ədibləri olublar. Rus imperializmi dünyaya nə qədər zərər vurubsa, rus ədəbiyyatı da bəşər mədəni xəzinəsinə elə bir o qədər, bəlkə ondan da artıq fayda, qazanc gətirib. Məncə, böyük rus nəsrinin dünya ədəbiyyatına bir janr bəxş eləməyə mənəvi haqqı çatır. Üstəlik də elə əsərlər var ki, onlara nə hekayə, nə də roman yarlığı yapışdırmaq mümkün deyil. Belə yerdə povest janrı müəllifin dadına çatır. Aydındır ki, janrlara dəqiq, birmənalı tərif vermək, onların arasına keçilməz sərhəd qoymaq çətin məsələdir, bununla belə bir janrı o birindən ayırmaq üçün həm elmin, həm də fəhmin nəzəriylə baxanda aydın görünən fərqlər var.

Azərbaycan nəsrində povest janrının parlaq örnəkləri var. Çox da keçmişə varmadan ötən əsrin altmışıncı illərindən üzübəri yola çıxsaq, İsa Hüseynovun "Teleqram", Sabir Əhmədovun "Yamacda nişanə", Çingiz Hüseynovun "Məhəmməd, Məmməd, Məmiş", Əkrəm Əylislinin "Kür qırağının meşələri", Anarın "Ağ liman", Elçinin "Toyuğun diri qalması", Yusif Səmədoğlunun "Astana", İsi Məlikzadənin "Quyu", Maqsud İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi", Rüstəm İbrahimbəyovun "Anın hökmü", Sabir Azərinin "Ölə bilməyən adam", Mövlud Süleymanlının "Şeytan", Ramiz Rövşənin "Daş", Seyran Səxavətin "Qapıların o üzündə qalan dünya", Vaqif Nəsibin "Ceyrançöldə qara bayram", Eldar Baxışın "Qaravun dərənin adamları", Məmməd Orucun "Leylək körfəzi", Dilsuzun "Yol", Aqil Abbasın "Saçın ucun hörməzlər", Afaq Məsudun "İzdiham", Səfər Alışarlının "Gavur", Ələbbasın "Köhnə kişi", Nəriman Əbdülrəhmanlının "Dönəlgə", Orxan Fikrətoğlunun "Şəkillər", Murad Köhnəqalanın "Bulud pinəçisi", Mübariz Örənin "Ağ buludlar", Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" povesti belə seçilən nümunələrdəndir. Şübhəsiz, bu cərgədə adı çəkilməyə layiq xeyli başqa əsər də var, mən sadəcə ilk yadıma düşənləri sadaladım. Üstəlik, hər yazıçıdan yalnız bir povest adı çəkdim, halbuki elə həmin müəlliflərdən bir qisminin barmaqla göstəriləsi povestləri burada sadalananlardan qat-qat çoxdur. Ümumiyyətlə, hesaba vursaq, nəsrimizdə yaxşı povestlərin sayı yaxşı hekayələrin də, yaxşı romanların da sayından xeyli artıqdır.

Saday Budaqlının "Şəbəkə", "Fevral" povestləri də yuxarıdakı siyahıda fəxri yer tutur. "Şəbəkə"ni ilk dəfə ötən əsrin səksəninci illərində bir almanaxda, "Fevral"ı Yusif Səmədoğlunun rəhbərlik elədiyi "Ulduz" jurnalında oxumuşdum. Bu əsərlər müəllifin 1985-ci ildə "Yazıçı" nəşriyyatında çapdan çıxmış "Döngə" adlı ilk kitabına salınmamışdı, çünki ondan sonrakı dövrdə qələmə alınmışdı. 1987-ci ildə işıq üzü görmüş "Çat" kitabında isə hər iki povestə yer verilmişdi. Sadayın yaradıcılığına dərin rəğbət bəslədiyimi bilən atam əsgərliyə getdiyimdən bir neçə ay keçmiş həmin kitabı mənə poçtla göndərmişdi, ondan sonra dövri mətbuatdan bələd olduğum əsərləri yenidən oxumaq fürsəti qazanmışdım. Yeri gəlmişkən, bir Ramiz Rövşənin "Göy üzü daş saxlamaz", bir də Saday Budaqlının "Çat" kitabı mənimlə birgə əsgərlik çəkib, həmin nüsxələri bu gün də gəncliyimin ən əziz yadigarları kimi kitabxanamda qoruyub saxlayıram.

***

Əminliklə deyə bilərəm ki, Saday Budaqlı milli ədəbiyyatımızda psixoloji nəsrin ən böyük ustasıdır. Onun təkcə bu dünyada yox, öz evlərində-eşiklərində, öz doğmalarının arasında, öz vücudlarında belə qərib-qərib dolanan tənha, köməksiz, vasvası qəhrəmanları bir situasiyadan başqasına adlayanda haldan-hala düşürlər, dondan-dona girirlər, yüz yol ölüb-dirilirlər. Saday mahir, həm də amansız eksperimentator kimi qabağına qatıb qovub qəfil döngələrdə azdırdığı, keçilməz dalanlara qısnadığı, divara dirədiyi obrazların ürəyindəki çırpıntıları, beynindəki közərtiləri kardioqram dəqiqliyi, ensefaloqram həssaslığıyla qeydə alır. Onun qəhrəmanları içində könüllü dustaqlıq çəkən, beyninin şırımları arasında vurnuxan, düşüncələrinin labirintində azıb qalan, sərhədlərini tapdalayıb mənəvi ərazisini genəltməyə, dünyayla ünsiyyət qurmağa, adamlarla dil tapmağa gücü-qüdrəti yetməyən insanlardır. Bu adamlar həyatda kölgə kimi, kabus kimi dolaşırlar, istəyirlər onları nə sezən, nə görən olsun, üstlərinə, içlərinə heç kimin işığı düşməsin; əvəzində özləri hər şeyi, hər kəsi vücudlarının qaranlıq zirzəmisindən bir kəşfiyyatçı hərisliyi, casus marağıyla incələyinə qədər izləyirlər. Müəllif onların gördüklərini öz rejissor obyektivinin qüdrətli, zəhmli nəzəri, göz qamaşdıran projektorların altında yox, elə onların gördüyü kimi, onların içinə yerləşdirdiyi kiçik izləmə kamerasının işığında bizə göstərir. Oxucu personajların dünyasına onların gözüylə baxır, hər nəsnəni, hər hadisəni oradan göründüyü kimi beynində qeydə alır.

Saday Budaqlının əsərlərində "obyektiv aləm" deyə bir anlayış, bu aləmə "obyektiv" baxış deyə bir metod yoxdur, orada hər görünən, hər duyulan, hər qanılan fərdidir, subyektivdir, bənzərsizdir. Yazıçı "Fevral" povestinin qəhrəmanının timsalında öz personajlarının həmin "obyektiv" aləmlə toqquşmasını qəza kimi təsvir eləyir: "...Elə bil bu vaxta qədər gur işıq salmışdılar üstünə, nə elədiyini, nə dediyini, nə düşündüyünü bilmişdilər, bilib halına gülmüşdülər, ağlamışdılar, o isə gözünü qırpa-qırpa qalmışdı, bu adamları görəmməmişdi, gördüyü qaraltılarca olmuşdu, bu qaraltılardan da özü üçün adamlar düzəltmişdi, ad qoymuşdu, haqqında əhvalatlar uydurmuşdu; indi o istəyirdi işığı bu qaraltılara tərəf çevirsin, onların əslində necə olduğunu görsün, tanısın, onu da bilsin ki, gur işıqda döyükə-döyükə qalanda halı necəymiş, necə görünürmüş, bu adamlar onun haqqında nə düşünə bilərlərmiş. Di gəl, öz gözü ilə heç nə görmədiyindən eşitdikləri də hiss elədiklərinə, özündən düzüb-qoşduğuna qarışmışdı və illər keçdikcə nəyin düz, nəyin qondarma olduğunu ayırd eləyəmmirdi, elə bil nə vaxtsa gördüyün yuxu qəfilcə yadına düşür, anşırammırsan ancaq yuxuda olub bu, yoxsa həqiqətdə..."

Bu xarakteristika təkcə "Fevral" povestinin yox, yazıçının aşağı-yuxarı bütün qəhrəmanlarının mənəvi-psixoloji vəziyyətini ifadə eləmək üçün yarayır. Onun əksər personajları belə bir qəza situasiyasına düşür, kənar aləmdən ağır zərbə, zədə (bu adda romanı da var) alandan sonra öz qınlarına çəkilirlər. Misal gətirdiyim parçanı Saday Budaqlı üslubunun bədii şərhi də saya bilərik.

Sadayın ədəbi subyektivizmi modern ədəbiyyata çox güclü təkan vermiş, bundan da əvvəl ədəbiyyatın bağrından qopmuş ekzistensializm fəlsəfəsinin ana prinsiplərindən birini yada salır: insan içində yaşadığı dünyanı, ətraf aləmi obyektiv dərk eləyə bilməz, olsa-olsa bu dünyaya münasibətini, kənar aləmin onda oyatdığı subyektiv təəssüratı qanıbqandıra bilər. Bunun üçün də bədii metod, ədəbi əsər ən yaxşı, ən tutarlı alətdir. Saday Budaqlının personajlarını da nə qədər axtarsaq belə obyektiv dünyada tapa bilmərik, biz o dünyanın adamlarına yalnız əsas qəhrəmanın nəzəriylə baxa bilərik. Əsas qəhrəman dediyimiz adamlarınsa nə qədər ədalətli, səmimi, dürüst davrandığını, onların gördükləriylə müəllifin gördüklərinin üst-üstə düşüb-düşmədiyini, başqa sözlə, ardınca getdiyimiz personajların baxışlarına etibar eləməkdə haqlı olub-olmadığımızı biz heç zaman bilməyəcəyik.

***P.S. Noyabrın 13-də Saday Budaqlının 70 yaşı tamam oldu. Bu münasibətlə görkəmli yazıçını təbrik edir, ona möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları diləyirik.***

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






## Vətəndaş cəmiyyəti demokratik dəyərlərə doğru atılan addımdır

# Dövlətin və cəmiyyətin dayanıqlı inkişafı...

Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol bir daha göstərir ki, vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət formalaşdırmaq mümkündür. Cəmiyyətdə hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərir.

Müasir dövrün ən çox işlədilən sözlərindən biri də “vətəndaş cəmiyyəti” ifadəsidir. Bu ifadənin hər hansı ölkə daxilində işlədilməsinin səviyyəsi dövlət hakimiyyətinin formasını müəyyən etmək üçün təsəvvürlər sistemi yaradır. Vətəndaş cəmiyyəti quruculuğundan söhbət gedirsə, deməli, demokratik dəyərlərin mövcudluğundan danışılır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, respublikamızın inkişaf tarixinə bir daha nəzər salsaq görərik ki, XX əsrin 70-ci illərindən ölkədə yüksələn sürətlə inkişaf edən sosial, iqtisadi, təhsil və mədəni quruculuq işləri başlamışdı: “Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən qısa bir dövrdə vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilib. Mühüm sənədlər qəbul edilmiş, öhdəliklərə imza atılıb.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunun daha da inkişaf etdirilməsi sahəsində aparılan islahatlar davamlı xarakter daşıyır.

Bu gün Azərbaycan nəinki ölkəmizdəki vətəndaşların hüquqlarının qorunması istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eyni zamanda dünya azərbaycanlılarının da hüquqları, imtiyazları, ana dilində təhsil almaq kimi təbii hüquqları uğrunda çağırışlar edir. Bu da dünya azərbaycanlılarının həmrəyliyinin gücləndirilməsi işinə təkan verir”.

Deputat qeyd edib ki, ölkə başçısı tərəfindən həyata keçirilən məqsədyönlü, hədəflərə xidmət edən siyasət nəticəsində vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində ölkəmizdə bu istiqamətdə çox ciddi uğurlara imza atılıb:

“Hüquqi dövlət quruculuğu Prezident İlham Əliyevin yürütdüyü siyasətin ana xəttini təşkil edir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi, vətəndaş cəmiyyəti qurmaq mümkündür.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində də sıçrayışlı inkişafa nail olundu. Bu sahədə qanunvericilik daim təkmilləşdirilir, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsilə bağlı mühüm işlər görülür, onların inkişafı üçün əlverişli mühit yaradılıb”.

Deputatın sözlərinə görə, vətəndaş cəmiyyətinin formalaşmasında və inkişafında ictimai qurumların, həmçinin qeyri-hökumət təşkilatlarının çox böyük rolu var: “Bu baxımdan ölkəmizdə bu yöndə bir sıra mühüm addımlar atılıb. Vətəndaş cəmiyyətinin sağlam şəkildə formalaşması sabitliyin əldə edilməsində, vətəndaşların təhlükəsizliyinin təmin edilməsində, eyni zamanda sosial ədalətin təmin olunmasında mühüm faktordur.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**

Ölkə başçısının qeyd etdiyi kimi, “vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin davam etməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir”.

Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi nəticəsində Hakimiyyət-Xalq- Ordu birliyi formalaşıb. Məhz bu birlik 2020-ci ildə Azərbaycan xalqı bütövlükdə İkinci Qarabağ savaşında möhtəşəm tarixi qələbəyə imza ataraq ərazi bütövlüyünü, 2023-cü ildə antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etdi. Əldə etdiyimiz bu uğurların kökündə düzgün və hədəflərə xidmət edən siyasət dayanır. Bundan sonra da bu istiqamətdəki uğurlu siyasi kursumuz davam edəcək və nəticədə Azərbaycan dünyanın güclü, qüdrətli, inkişaf etmiş ölkələrindən birinə çevriləcək”.

***Yeganə***

# Bəşəriyyətin “yarası”...



## Zorakılığın kölgəsində qalan qadınlar

**Zorakılıq heç vaxt təsadüfi şəkildə olmur. O, susqunluqdan, qorxudan, bəzən isə insanların laqeydliyindən böyüyür. Qadınlar döyüləndə, təhqir ediləndə, hədə-qorxuya məruz qalanda, onların səsi eşidilməyəndə yalnız bir insan deyil, bütöv bir gələcək sındırılır. Statistik nəticələrə əsasən deyə bilərik ki, əksər hallarda zorakılıq qurbanı qadınlardır. Qadın zərifdir, yoxsa zəif? Bəlkə qadının zəif hesab edilməsi zorakılıq hallarının artımına səbəb olur? Bəlkə cəmiyyətin kişini güc mənbəyi hesab etməsi zorakılıq zəncirinə yeni halqalar qoşur? Qadınlara qarşı zorakılıq dedikdə, ilk başa düşülən onların döyülməsi olur. Ancaq zorakılıq daha geniş anlayışdır və özündə müxtəlif formaları birləşdirir. Qadınlar gizli və aşkar, birbaşa və ya dolayı, keçmişdə yaxud hazırda baş verən, dəfələrlə təkrarlanan zorakılıq növlərinə rast gəlirlər. İncə məxluqlar zorakılığın mənəvi, psixoloji, emosional, verbal (sözlü), cinsi, fiziki, iqtisadi, sosial və s. formalarını yaşayırlar. Artıq 26 ildir ki, noyabr ayının 25-i Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Məclisi 1999-cu ildə 25 noyabrı Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü elan edib.**

## Tarixə baxış...

Bu günün tarixi 1960-cı ildə Dominikan Respublikasında baş verən hadisələrdən qaynaqlanır. O zamanlar Dominikan Respublikasında diktaturaya qarşı mübarizə aparan 3 bacı Patria, Minerva və Maria Mirabelin cəsədləri bir uçurumun ətəyində tapılıb. Mirabel bacıları öldürüldükdən sonra qəzetlərdə bu ölümün avtomobil qəzası nəticəsində baş verdiyini bildirən xəbərlər çıxmışdı. Ancaq həqiqət göründüyü kimi deyildi. Mirabel bacıları Latın Amerikasındakı diktator Rafael Leonidas Truxilona meydan oxumuşdular, ölkələrindəki siyasi azadlıq əzmində mübarizə aparmışdılar. Beləliklə, diktatura tərəfindən təqib edilmiş, dəfələrlə həbs olunduqdan sonra nəhayət maşınlarından didərgin salınaraq təcavüz edildikdən sonra işgəncə ilə öldürülüblər.

Daha sonra Dominikan şairi Pedro Mir “Amen de Mariposas” (“Kəpənəklərin Amini”) adlı şeirində üç bacının öldürülməsini qınayır. Eyni dövrdə Dominikan Respublikası və ABŞ-da ən çox satılan müəllif Julia Alvarez Mirabel bacılarının həyatı haqqında romanını “Kəpənəklər dövründə” adı ilə nəşr etdirir. Bu kitab Mirabel bacılarını “kəpənəklər” kimi məşhur edir. 25 noyabr 2000-ci ildə Mirabel bacılarının cəsədləri qadın təşkilatları tərəfindən doğulduqları kəndə köçürülür.

## Qadınların 69 faizi...

BMT-nin Narkotik və Cinayətkarlıq İdarəsinin (UNODC) verdiyi məlumata əsasən, dünya üzrə hər gün 137 qadın öldürülür. BMT-nin Demokratik Fondunun hesabatına görə, hər il 5 min qadın namus məsələsinə görə qətlə yetirilir. Qadınlarla bağlı baş verən cinayət hadisələrinin araşdırılması və təhlili göstərir ki, qurban seçilmiş qadınların 70 faizi ərləri və ya sevgililəri tərəfindən öldürülür. Dünyada hər üç qadından biri zorakılığın qurbanı olur. Hər beş qadından biri isə təcavüzə məruz qalır. Mütəxəssislərin 48 ölkədə apardıqları araşdırmaya görə, qadınların 69 faizi həyat yoldaşları tərəfindən döyülür, söyülür, incidilir və müxtəlif təcavüzə məruz qalırlar. Dünya üzrə qadınlarla bağlı zorakılıq hallarının, yəni cinayətlərin 29 faizi namus üstündə, 15 faizi həyat yoldaşını aldatmağa görə, 29 faizi ailəyə uyğunlaşmamağa görə, 10 faizi isə qan davası ilə bağlı olur.

***Yeganə BAYRAMOVA***


# “Asan İmza” indi “Azercell” tətbiqində!

## Yeni funksiya “Asan İmza” məlumatlarını bir toxunuşla əlçatan edir

Rəqəmsal həllərini davamlı olaraq təkmilləşdirən Azercell “Asan İmza” xidmətinin əsas məlumatlarını mobil tətbiqinə inteqrasiya edib. Yeni funksiya vasitəsilə istifadəçilər tətbiq üzərindən gücləndirilmiş mobil elektron imzanın etibarlılıq tarixi, statusu, xidmətin növü və aylıq uzatma müddəti kimi vacib məlumatları rahatlıqla əldə edə bilirlər.

İlkin mərhələdə xidmət yalnız Fakturasız (SimSim) xətt abunəçiləri üçün təqdim olunub, növbəti mərhələdə isə Fakturalı xətt müştəriləri üçün də əlçatan olacaq.

Yeni həll Azercell abunəçilərinin müştəri təcrübəsini daha da optimallaşdırır və keyfiyyətli xidmətlərə daha rahat çıxış imkanı yaradır.





## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**MƏZAHİR BALAQADAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## İtmişdir

Yeni Azərbaycan Partiyası tərəfindən Əmirov Fikrət Yaqub oğluna verilmiş 052325 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4997**
**Sifariş: 2401**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova